Prezident İlham Əliyev
İstiqlaliyyət küçəsi 19
1066 Bakı
Azərbaycan Respublikası
Fax: +994124923543  və +994124920625
Email: office@pa.gov.az

Baş Prokuror Zakir Qaralov
Nigar Rəfibəyli küçəsi 7
1001 Bakı
Azərbaycan Respublikası
Email: contact@prosecutor.gov.az

12 Avqust 2013

**Re.: Tədqiqatçı jurnalist Xədicə İsmayılovaya qarşı davam edən şantaj və təhdidlər barədə**

Cənab Prezident Əliyev,
Cənab Baş Prokuror Qaralov,

Article 19 (19-cu Maddə), Civil Rights Defenders (Mülki Hüquqların Müdafiəçiləri təşkilatı), Human Rights House Foundation (İnsan Hüquqları Evi Fondu), Human Rights Watch (İnsan Hüquqlarına Nəzarət), International Media Support (Beynəlxalq Media Dəstəyi), Media Diversity Institute (Media Fərqliliyi İnstitutu), Norwegian Helsinki Committee (Norveç Helsinki Komitəsi), Open Society Foundations (Açıq Cəmiyyət İnstitutları), PEN International (Beynəlxalq Yazarlar, Şairlər, Esseçilər təşkilatı), People in Need Organisation (Yardıma Ehtiyacı olan İnsanlar) və Reporters without Borders (Sərhədsiz Jurnalistlər) təşkilatları bu məktubla sizə müraciət edərək tədqiqatçı jurnalist Xədicə İsmayılovaya qarşı davam edən təzyiq və təhdidlər və onun jurnalist fəaliyyətinə edilən müdaxilələrlə bağlı ciddi narahatçılığımızı bildiririk.

**İsmayılovaya qarşı edilən təhdidlərlə bağlı çevik, hərtərəfli, səmərəli və şəffaf təhqiqatın aparılmasını və eləcə də İsmayılovanın şəxsi həyatının toxunulmazlığının pozulması üzrə hazırda gedən istintaq işinin səmərəliyinin təmin edilməsi üçün sizi təcili addımlar atmağa çağırırıq.**

Xədicə İsmayılova araşdırmaçı jurnalist və Azad Avropa/Azadlıq Radiosunun Azərbaycan xidmətində veriliş aparıcısıdir. Tədqiqatçı jurnalist kimi o, tez-tez yüksək ranqlı hökümət məmurlarının biznes holdinqləri və korrupsiya iddiaları üzrə araşdırmalar aparır.

İsmayılovaya qarşı qaralama kampaniyası 7 mart 2012-ci ildə baş verib. Həmin gün ona anonim şəxs tərəfindən göndərilən məktubda jurnalistin öz oğlan dostu ilə birlikdə intim şəkilləri ilə yanaşı, həm də "Qəhbə, özünü yığışdır, əks halda rüsvay olacaqsan" yazılmış qeyd ilə ona xəbərdarlıq olunub. İsmayılova bu təhdid məktubunu ictimailəşdirərək özünün tədqiqatçı jurnalist fəaliyyətinə davam edib.

İsmayılovanın öz oğlan dostu ilə birlikdə intim həyatına aid gizli çəkilmiş video 14 mart 2012-c il tarixində internetdə yayımlanıb. Videonun yayılmasından bir gün öncə, hökumət-yönümlü bir qəzetdə İsmayılova hədəfə alınaraq onun şəxsi həyatını tənqid edən uzun bir yazı cap olunub.

Biz bilirik ki, 15 mart 2012-ci ildə Azərbaycan Respublikasının Prezident Administrasiyası bəyanatla çıxış edərək İsmayılova qarşı edilən bu hərəkətləri ciddi çəkildə pisləyərək işlə bağlı istintaqın aparılmasına söz vermişdir. Növbəti gün, prokurorluq bu işlə bağlı şəxsi həyatının toxunulmazlığının pozulması üzrə cinayət işi qaldırmışdır. Lakin, bizim dəqiq bildiyimizə görə, prokurorluq İsmayılovanın şantaj edilməsiylə bağlı istintaq araşdırmasına başlamağı rədd etmişdir. O zamandan bəri, İsmayılova ən azı 4 rəsmi məktubla prokurorluğa müraciət edərək istintaqla bağlı yenilikəri öyrənmək istəmişdir. Lakin, İsmayılovunun bildirdiyinə görə prokurorluq ancaq istintaqın davam etdiyi ilə bağlı cavab verərək əlavə heç bir məlumat verməmişdir.

İsmayılova özünün apardığı təhqiqat nəticəsində naməlum hökumət məmurunun göstərişi ilə 2 iyul 2011-ci ildə onun evinə gələrək əlavə telefon xətləri çəkən telefon şirkəti işçisinin kimliyini müəyyən etmişdir. Bu tarixdən bir neçə gün əvvəl Azad Avropa/Azadlıq Radiosu İsmayılovanın yüksək səviyyəli korrupsiya ilə bağlı apardığı araşdırmasını çap etmişdir.

İsmayılova həm də dəqiqləşdirmişdir ki, ona göndərilən şantaj məktubu Moskvadakı bir poçt şöbəsindən göndərlib. İsmayılova bu məlumatı prokurorluqla bölüşərək bu istiqamətdə təhqiqat aparılmasını xahiş etsə də, prokurorluq bununla bağlı cavab verməmişdir.

2013-cü ilin aprel ayında hökumət-yonümlü bir internet səhifəsi Xədicə İsmayılovaya bənzəyən bir qadının açıq-saçıq intim xarakterli videosunu yayaraq iddia etmişdir ki,

videodakı qadın Xədicə İsmayılovadır. Lakin, İsmayılova bildirmişdir ki, video saxtadır və bu ona qarşı edilən qaralama kampaniyasının davamıdır.

Hakim partiyaya rəsmi olaraq yaxın olan qəzetlər 2013-cü il boyunca İsmayılovaya qarşı intim xarakterli videolara istinadlar etməklə, bu videoların yerləşdirildiyi internet səhifələrinin linklərini çap etdirməklə və eləcə də İsmayılovanın özü və ailə üzvləri barədə yalanlar yazmaqla qaralama kampaniyasını davam etdirmişdir. Bütün bunlarla bağlı İsmayılova Azərbaycan məhkəmələrində öz hüquqlarının bərpasına nail ola bilməmişdir.

İyul ayının 26-da digər bir internet səhifəsinin İsmayılovanın evində gizlincə aparılmış intim xarakterli bir çox videoları saytında yerləşdirməsi açıq şəkildə İsmayılovaya qarşı təhdidlərin davamını və onun gözdən salınması məqsədiylə edildiyini göstərir.

Həm insan ləyaqətinin qorunması, həm də demokratik cəmiyyətin səmərəli fəaliyyəti üçün əhəmiyyət daşıyan və  fundamental insan hüquqları sahələrindən olan şəxsi həyatın toxunulmazlığı və ifadə azadlığı hüquqlarının təminatı və qorunması ilə bağlı Azərbaycan Respublikası aydın şəkildə öz üzərinə beynəlxalq öhdəliklər götürmüşdür.

Birləşmiş Millətlər Təşkilatının Universal Dövrü İcmalı müzakirələrində jurnalistlərin təhlükəsizliyi ilə bağlı  Azərbaycana çoxlu sayda tövsiyyələr verilmişdir. Sloveniya tərəfindən verilən tövsiyyədə (109.115 nömrəli tövsiyyə) Azərbaycandan xahiş olunur ki, "Jurnalist və yazıçıların sərbəst işləməsi üçün şərait yaradılsın və onların yazdıqları tənqidi fikirlərə görə və hokumətin həssas yanaşdığı mövzuları işıqlandırdıqlarına görə cəzalanma qorxusu olmadan fəaliyyət göstərə bilsinlər". Böyün Britaniya tərəfindən verilən tövsiyyədə (109.119 nömrəli tövsiyyə) isə  Azərbaycan hökumətinə çağırış edərək bildirilir ki, "hüquq müdafiəçilərinə və jurnalistlərə edilən hücumların səmərəli və şəffaf araşdırılmasının təmin edilsin və eləcə də xüsusi diqqət kəsb edən üstü açılmamış cinayət işlərinin həlli sürətləndirilsin və  günahkarlar məsuliyyətə cəlb olunsun."

Azərbaycan hökumətinin rəhbərliyi demokratiya və insan hüquqları sahəsində öhdəliklərə sadiq olmasını əvvəllər bir çox hallarda dilə gətirsə də, bu öhdəliklərin yerinə yetirilməsi sahəsində çoxlu işlər görməlidir.

**Biz Xədicə İsmayılovanın şəxsi həyatının toxunulmazlığı hüququnun pozulması, ona qarşı edilən təhdidlər və onun iş fəaliyyətinə edilən müdaxilələrin təhqiqatının çevik, hərtərəfli, səmərəli və şəffaf aparılmasının təmin edilməsi üçün sizi təcili və konkret tədbirlər görməyə çağırır.** Belə bir istintaq araşdırması İsmayılovaya qarşı aparılan kampaniyanın günahkarlarını müəyyənləşdirməyə və məsuliyyətə cəlb etməyə qadir olmalıdır.

Bu mühüm məsələyə diqqət ayırdığınız üçün təşəkkür edirik.

Hörmətlə,

Article 19
Civil Rights Defenders
Human Rights House Foundation
Human Rights Watch
International Media Support
Media Diversity Institute
Norwegian Helsinki Committee
Open Society Foundations
PEN International
People in Need Organisation
Reporters without Borders

**Yazışmalar üçün:**


Rachel Denber

Human Rights Watch,
Avropa və Orta Asiya Bölməsinin Direktor müavini
Email: denberr@hrw.org
350 5th 10118-3299
Nyu York
Amerika Birləşmiş Ştatları

Florian Irminger

Human Rights House Foundation,
Cenevrə ofisinin və beynəlxalq vəkillik şöbəsinin rəhbəri
Email:
florian.irminger@humanrightshouse.org
Ave Rue de Varembé 1, PO Box 35
1211 Cenevrə 20
İsveçrə